# Cəlil Məmmədquluzadənin ədəbi irsinin öyrənilməsində muzeylərin rolu

**Arzu Əli qızı Rzayeva**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
**E-mail:** arzurzazade@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. Y.M. Eyvazova,
k.ü.f.d., dos. S.M. Əliyeva

**Açar sözlər:** Cəlil Məmmədquluzadə, xatirə muzeyi, ədəbi irs, memorial əşya, şəxsiyyət, tarix

**Ключевые слова:** Джалил Мамедкулизаде, мемориальный музей, литературное наследие, мемориальный предмет, личность, история

**Key words:** Jalil Mammadguluzadeh, memorial museum, literary heritage, memorial item, identity, history

Azərbaycanda ilk dəfə XX əsrin əvvəllərində yaradılmış memorial - ev muzeyləri xüsusi tipoloji qrupu təşkil etməklə özünəxas xüsusiyyətlərə malikdir. Tarixi ev muzeylərinin səciyyəsi və ölçülərindəki fərqlər onların mədəni, siyasi, sosial kontekstləri ilə şərtlənir. Muzey elminin 1920-1960-cı illər ərzində başlayan təkamülündən "memorial muzey" anlayışı bir sıra dəyişikliklərə məruz qalmışdır. Bunun başlıca səbəbi memorial, xatirə-ev muzeylərinin sayının sürətlə artması idi. Rus sovet muzeyşünasları A.M. Razqon və S.A. Kasparinskinin tədqiqatları sayəsində görkəmli şəxsiyyətlərin xatirə əşyaları nümayiş etdirilməyən, yaxud da onlarla, tarixi hadisələrlə əlaqəsi olmayan məkanlarda təşkil edilmiş muzeylərin "memorial" adlandırılması ilə son qoyuldu. Onlar memoriallığı aşağıdakı kimi arqumentləşdirirdilər: "Memoriallığın zəruri komponenti məkanın əsilliyidir: yaşamış insanın və ya baş verən hadisənin sənədliliyə əsaslanan memorial mühitinin qorunduğu, yaxud da yenidən yaradıldığı memorial binadır" (5, s. 341). Hal-hazırda muzey abidələr içərisində ən çox qrupu təşkil edən, məhz ev muzeyləridir.

Tarixi ev-muzey həm həqiqi, həm də rəmzi mənada tarix və onun yaradıcısı, tarixi şəxsiyyətlə görüş məkanıdır. Tarixi ev muzeylərinin bu kimi xüsusiyyətləri sayəsində keçmiş hadisələr xatirələrdə canlanır, vaxtılə bu mənzildə yaşamış şəxsin həyat tarixçəsi ilə ziyarətçi arasında təmas qurulur ki, bu da həmin tipdən olan muzeylərdə elmi bilik və metodların interpretasiyasındakı mötəbərliyinə əhəmiyyətli şəkildə təsir göstərir.

Tarixi biliklərin və muzeoloji rekonstruksiyanın dialektik qarşılıqlı əlaqəsi öz təzahürünü muzey tərəfindən mədəni inkişafın davamlılığını təmin edən yeni reallıqda tapır. Tarixi ev muzey, demək olar ki, heç bir manipulyasiyaya uğramadan özünün qorunması, nümayişi, həqiqi-əsil tarixi mühitin yaradılması ilə unikal sayılır.

Memorial mənzilin daxili quruluşunu onun autentlik mühitinə xələl gətirmədən dəyişmək mümkün deyil. Əgər digər tipli muzeydə (məsələn, diyarşünaslıq) ayrıca götürülmüş muzey əşyasının dəyəri əsas götürülürsə, tarixi binada yerləşən memorial muzeyin başlıca dəyəri, bu evin sakinlərinin mənəvi həyat xüsusiyyətlərini üzə çıxaran əşya kompleksləridir. Ev muzeyinin planlaşdırma, məkanının dəyişdirilməsi tarixi saxtalaşdırılmaya yol açacaqdır. Ev muzeyində daşınar və daşınmaz əmlakın bütövlüyü və dəqiqliyi xüsusi əhəmiyyət kəsb edir. Bərpa zamanı təhrifə imkan yaratmaq yolverilməzdir. Məhz elə bu səbəbdən də, ev muzeyində çalı-

şan əməkdaşlar muzey rekonstruksiyasının sənəd mötəbərliyinə görə məsuliyyət daşıyırlar.

Tarixi evin dəyəri buradakı əşyalardan (müstəqil əhəmiyyətə malik olan) daha çox, öz əzəli, ilkin mühitində buradakı əşyalardan istifadə etmiş, burada gəzmiş, bu divarlar arasında məskunlaşmış insanların mənəvi həyatının təcəssümü ilə müəyyən olunur. Ev muzeydə vaxtılə yaşamış, yaxud da onun sahibi olmuş insanın obrazı təxəyyülə təsir edən cəzbedici güc və cazibədarlığa malikdir. Bu cür muzeyin məqsədi "özü-özlüyündə nə tarix, nə də həyatdır, lakin tarix və həyatın nümayişidir. Hər bir otaq bu və ya digər mövzunun nümayişini təşkil edən səhnə səkisidir" (4, s.10-11).

Oksfordlu tədqiqatçı S.Butçer-Yanhans 1993-cü ildə tarixi evlər üç kateqoriyaya təsnifini təklif etmişdir:

— İmkan daxilində əzəli yerləşməsini saxlayan, orijinal əşyalardan ibarət olan, tarixi və ya mədəni maraq doğuran, bu və ya digər şəxsin həyatından, yaxud da məkandan bəhs edən sənədli-tarixi ev muzeyləri;

— Üslub, tarixi dövr, yaxud da həyat tərzi haqqında təsəvvür yaradan reprezentativ tarixi-ev muzeyləri; bu cür muzeylərdə əşyaların mühitin ilkin, əzəli vəziyyətinə görə bərpası vacib sayılmır. Bu zaman əsillərin, orijinalların surətləri, yaxud da bu evə aidiyyatı olmayan bədii bazardan əldə edilmiş həqiqi əşyalar da ola bilər;

— Evin özü, onun tarixi, yaxud da burada yaşamış insanlarla ümumi əlaqəsi olmayan şəxsi kolleksiyanı təqdim edən bədii-tarixi ev muzeyləri.

Azərbaycanda fəaliyyət göstərən memorial ev muzeyləri içərisində milli dramaturgiyanın, realist ədəbiyyatın görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin ev muzeyləri xüsusi yer tutur. Cəm halında işlətdiyimiz "muzeylər" sözü real vəziyyəti ifadə edir. Çünki görkəmli ədibin xatirəsi, həm doğulduğu, uşaqlıq və gənclik illərini keçirtdiyi vətənində-Naxçıvanda, həm də 1920-1932-ci illərdə yaşayıb-yaratdığı Bakı şəhərində təşkil edilmiş muzeylərdə əbədiləşdirilmişdir. Hər iki muzey görkəmli ədibin vaxtılə yaşadığı, məhz sakini olduğu mənzildə yaradıldığından memorial səciyyə kəsb edir.

C. Məmmədquluzadənin yaradıcı dühası, təkcə onun ədəbi irsi ilə çərçivələnmir, o, həm də milli mədəniyyətin müxtəlif istiqamətlərində yüksək peşəkarlıq göstərmiş, milli mədəni dirçəlişin, maarifçiliyin inkişafı uğrunda yorulmadan fədakarlıq göstərmiş ziyalılardan idi. Azərbaycanda muzey işinin təşəkkülü, məhz onun adı ilə bağlıdır. Bu sənətkarlıq xüsusiyyətləri ümummilli lider Heydər Əliyevin aşağıdakı fikirlərində də öz təsdiqini tapır: "Biz Cəlil Məmmədquluzadəyə sadəcə bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, eyni zamanda böyük ictimai xadim və böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. Bu, təkcə ədəbiyyatda, mədəniyyətdə deyil, siyasətdə də, ictimai həyatımızda da böyük xidmətdir" (1, s. 64.)

Belə tarixi xidmətlərdən biri ədibin 1896-cı ildə çalışdığı Nehrəm kənd məktəbində öz təşəbbüsü ilə yaratdığı ölkəşünaslıq muzeyi idi. Ölkənin mədəni həyatında bu hadisə sadəcə olaraq bir təşəbbüs deyildir, bu, həm də muzey işinin təşəkkülündə ilk əməli fəaliyyətin həyata keçirilməsi idi ki, bu da Azərbaycanın mədəni həyatında böyük əhəmiyyətə malik idi. Mirzə Cəlil muzey əhəmiyyətli əşyaların toplanılması işinə məktəbin pedaqoji və şagirdləri də cəlb edərək bu üsulla muzey işinin mahiyyətinin anlamasında onlara kömək edirdi. Saxsıdan hazırlanmış məişət əşyaları, pul sikkələri, dekorativ tətbiqi sənət nümunələrinin çoxu, məhz məktəbdə təhsil alanların toplayıcılıq fəaliyyəti nəticəsində əldə edilmişdir.

Bu üsulla tezliklə ölkənin ilk muzeyində zəngin muzey toplusu formalaşdı ki, bu xidmətinə görə C. Məmmədquluzadəyə Xalq Məktəbləri İdarəsinin müdiriyyəti tərəfindən təşəkkür

elan edilmişdir. Görkəmli ədibin ölkədə muzey işinin təşəkkülündəki bu xidməti Azərbaycan dövlətinin diqqətində olmaqla yüksək dəyərləndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 6 mart 2007-ci il Sərəncamında C. Məmmədquluzadənin bu sahədəki fəaliyyəti xüsusi vurğulanır.

Məhz bu amil C. Məmmədquluzadənin xatirəsinin bir-neçə muzeylə əbədiləşdirilməsinə, həm rəmzi, həm də mənəvi haqq verir. C. Məmmədquluzadənin adı ilə bağlı ilk muzey görkəmli ədibin 100 illik yubileyi münasibətilə 1966-cı il Azərbaycan SSR Nazirlər Sovetinin qərarına əsasən 1967-ci il iyunun 12-də Naxçıvan Muxtar Respublikasında açılmış Ədəbiyyat muzeyi oldu. Açılış zamanı 98 muzey əşyasına malik olmuş muzey toplusunun hazırda ümumi sayı 19000 təşkil edir.

1960-70-ci illərdə ölkəyə rəhbərlik etmiş ümummilli lider Heydər Əliyev bu muzeyin inkişafına xüsusi diqqət yetirirdi. 1974-cü ildə o, Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyi günlərində böyük sənətkarın adını daşıyan bu muzeyiu ziyarət etmiş, muzeyin inkişafı istiqamətlərində məsləhət və tapşırıqlarını vermiş, xatirə şəkli də çəkdirmişdir ki, bu da muzeyin ekpsozisiyasının tarixi foto nümunələrindən biridir. Muzeyin inkişaf strategiyasında ümummilli liderin göstərişləri həmişə prioritetlik təşkil edir.

C. Məmmədquluzadənin yubileyi şərəfinə 2008-ci ildə muzeyin şəhərin mərkəzində, hər cür şəraiti olan 2 mərtəbəli yeni bina ilə təmin olunması bu mədəniyyət məbədinin fəaliyyətinin rəngarəngliyinə, təkmilləşdirilməsinə əhəmiyyətli şəkildə təsir göstərdi. İlk növbədə, ekspozisiyanın müasir tələblərə uyğun şəkildə yenidənqurulmasına geniş imkanlar açıldı: iki mərtəbə və 3 zaldan ibarət olan muzey ekspozisiyası xronoloji ardıcıllıqla qurularaq Azərbaycan ədəbiyyatının xronoloji inkişaf dinamikasını əks etdirir. Qeyd etmək lazımdır ki, bu muzey AMEA-nın N. Gəncəvi adına Azərbaycan Dövlət Ədəbiyyat muzeyindən sonra ölkəmizdə zəngin ekspozisiya, dəyərli muzey əşyalara malik olan muzeylərdəndir.

Muzeydə hazırda ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini əks etdirən "Heydər Əliyev fondu" ilə yanaşı, Naxçıvanın mədəni və incəsənət həyatı ilə bağlı digər fondlar da fəaliyyət göstərir. Bunlara "Naxçıvan Dövlət Musiqili Dram Teatrının fondu", Nizami Gəncəvi, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, tanınmış filoloqlar Əziz Şərif, Məmmədcəfər Cəfərov, Abbas Zamanov, Lətif Hüseynzadə, İsa Həbibbəyli, xalq yazıçı və şairləri Mirzə İbrahimov, Məmməd Araz, İslam Səfərlinin fondları aiddir.

Naxçıvan Ədəbiyyat muzeyinin Cəlil Məmmədquluzadənin adına layiq müqəddəs məbəd olduğunu görkəmli şəxsiyyətlər də təsdiqləyirlər. Milli ədəbi irsinin, eləcə də C. Məmmədquluzadə yaradıcılığını araşdıranlar üçün hazırkı muzey əsil elmi mənbə rolunu oynayır. Bununla bağlı akademik Məmmədcəfər Cəfərovun fikri çox inandırıcı səslənir: "bizim müdrik Mirzə Cəlil sağ olsaydı, deyərdi: Qədirşünaslıq çox yaxşı şeydir, çox yaxşı şeydir... Sağ olun, bir-birinizin qədrini bilin!.." Görkəmli ədibin adını əbədiləşdirən bu muzey Naxçıvanın ictimai-sosial, mədəni həyatında yaxından iştirak edərək müasir tarixi şəraitin tələblərinə operativ cavab verməkdə çox böyük fəallıq nümayiş etdirir.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə təşkil etdiyi "Naxçıvan Muxtar Respublikası-90" sərgi Naxçıvanın cəmiyyətin bütün sahələrdə qazandığı uğurları rəngarəng eksponatlarla nümayiş etdirmişdir. Böyük mütəfəkkirin adını daşıyan bu muzeyin fəaliyyətində milli ədəbiyyatın bütün digər xadimləri ilə yanaşı, Cəlil Məmmədquluzadənin yaradıcılığının öyrənilməsi və populyarlaşdırılması da əsas vəzifələrdən biridir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərə ədibin fəaliyyətinə həsr edilmiş ekspozisiya, sərgilər, elmi konfrans, ədəbi-bədii tədbirlər, xatirə gecələri, maarifləndirici tədbirlər – mühazirə, məruzə görüşləri, eləcə də ədibin təşkil edilmiş şəxsi fondunu göstərmək olar. Fondda

yazıçının nəsil şəcərəsi, ailə üzvləri, seminariya yoldaşları, qələm dostları, görkəmli mollanəsrəddinçilər, sevdiyi və oxuduğu klassiklər, naxçıvanlı müasirləri, "Molla Nəsrəddin" jurnalının orijinal və digər çap nümunələri, Naxçıvan teatrında tamaşaya qoyulmuş əsərlərin afişaları, müxtəlif illərə aid nadir fotolar, təsviri incəsənət əsərləri və s. materiallar toplanılmışdır.

Cəlil Məmməquluzadənin həyat və fəaliyyətinin, yaradıclığının muzey təcəssümü, təkcə Naxçıvan Ədəbiyyatı muzeyi ilə çərçivələnməyir. 70 illik tarixi olan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyində C. Məmmədquluzadə xatirə fondunun yaradılması dediklərimizi təsdiqləyən faktdır. Xatirə fondunda qorunan sərvətlər öz memorial dəyərinə görə muzeyin ən mötəbər və unikal muzey əşyaları sırasına daxildir. Burada C. Məmmədqu luzadədən əlavə onun doğmaları Həmidə xanım Məmmədquluzadə, Əhməd bəy Cavanşir, Münəvvər Məmmədquluzadəyə məxsus xatirə əşyaları, yaxın qohumları ilə yazışmalar da mühüm yer tutur.

Görkəmli ədibin şəxsi kitab və jurnalları, ona məxsus olan əşyalardan əlavə, 100 illik yubileyi ərəfəsində muzeyə hədiyyə edilmiş əşyalar, yazıçının şəxsiyyəti və yaradılcılığına həsr edilmiş incəsənət əsərləri də daxildir. Fondda qorunan muzey əşyalarından ədibin yaradıcılığı, eləcə də Azərbaycan ədəbiyyatının Cəlil Məmmədquluzadə dövrünə aid sərgi və ekspozisiyaların təşkilindən əlavə, tədqiqatçıların elmi araşdırmalarında da istifadə edilir.

Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının muzey vasitəsilə öyrənilməsində görkəmli yazıçı və dramaturqun memorial ev muzeylərinin təşkili respublikanın, nəinki muzey işində, bütövlükdə mədəni həyatının mühüm hadisələrindən birinə çevrildi. Bu istiqamətdə ilk addım AR KP Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Sovetinin "Azərbaycan ədəbiyyatı və incəsənəti görkəmli xadimlərinin xatirə muzeylərini yaratmaq haqqında" 16 iyun 1976-cı il tarixli 223№li qərarı oldu. Qərarın 96-cı maddəsinə müvafiq olaraq 1982-ci ildə Bakı şəhəri Süleyman Tağızadə küçəsi 56 (tarixi ünvanı: Köhnə poçt küçəsi-64) ünvanında ədibə vaxtılə görkəmli siyasi xadim Nəriman Nərimanovun göstərişi ilə verilmiş 1920-1932-ci illərdə yaşayıb-yaratdığı mənzil boşaldılaraq toplanılan 3 mindən yuxarı muzey əşyası əsasında memorial muzey yaradıldı.

Muzey cəlilsevər ziyarətçilərin ixtiyarına 1994-cü ilin dekabrın 28-də verildi. C. Məmmədquluzadənin 125 illik yubileyi münasibətilə hazırlanmış ekspozisiyanın təntənəli açılışında Azərbaycan Respublikasının Prezidenti ümummilli lider Heydər Əliyev də iştirak etmişdir. Ekspozisiyanın təqdimatından razı qalan ümummilli lider öz məmnunluğunu rəy kitabında aşağıdakı fikirlə ifadə etmişdir:"...Şübhə yoxdur ki, muzey Mirzə Cəlil dühasının geniş təbliğinə faydalı xidmət edəcəkdir. Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə kömək edəcəkdir... Əminəm ki, muzeyin eksponatları artacaq, zənginləşəcək, xalqımıza daimi xidmət edəcək". Prezident Heydər Əliyevin bu fikri, muzeyin fəaliyyət strategiyasını diktə edirdi.

Muzey rəhbərliyi və əməkdaşları dövlət başçısının tövsiyə xarakterli bu müddəalarını rəhbər tutaraq Cəlil Məmmədquluzadənin həyatı və rəngarəng fəaliyyəti, əhatəli yaradıcılığı ilə bağlı axtarışları, araşdırmaları davam etdirir, onun populyarlaşdırılmasında muzey işinin müxtəlif, eləcə də ən müasir vasitə və formalarından istifadə edir. 3 min əşyanı təşkil etmiş əsas fond predmetlərinin sayı hazırda 5000 mindən yuxarıdır.

Ümumi sahəsi 185 kvadratmetr olan memorial muzeydə 96 kvadratmetri əhatə edən beş ekspoziya zalı fəaliyyət göstərir. Ekspozisiya zalları memorial ekspozisiyaların layihələndirilməsi prinsiplərinə uyğun olaraq Mirzə Cəlilin həyat və fəaliyyətinin xronoloji ardıcıllığını təqdim edir ki, bu da ziyarətçilərdə onun yaradıcılığı haqqında aydın təsəvvürün formalaşmasına geniş imkanlar açır. Muzeyin, məhz maarifləndiricilik imkanlarını dəyərləndirən ziyarət-

çilərdən birinin – Çexiyada yaşayan azərbaycanlının rəy kitabındakı qeydləri diqqəti cəlb edir: ”Fikrimcə, gənc nəsil bu tip muzeylərdə daha tez-tez olmalı, ədəbi irsimizi bilməli, vətən, xalq uğrunda qələminin gücü ilə vuruşanları tanımalı və tanıtmalıdır” (2).

Mirzə Cəlilin ədəbi irsini qorunması, təbliği, öyrənilməsində 1986-cı ildə Naxçıvanın Babək rayonunun Nehrəm kəndində, 1987-ci ildə isə, Şərur rayonunun Cəlilkənd kəndində yaradılmış xatirə muzeylərinin də adlarını qeyd etmək lazımdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvan şəhərində C. Məmmədquluzadənin doğulduğu, uşaqlıq və gənclik illərini keçirtdiyi mənzilində ev muzeyinin yaradılması haqqında imzaladığı 19 iyun 1998-ci il tarixli Sərəncamı Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin qeyd olunduğu günlərdə-1999-cu il oktyabrın 13-də. Muzeyin açılışında iştirak etmiş ümummilli lider Heydər Əliyev öz nitqində qeyd etmişdir: ”Bilirsiniz, mən xoşbəxt günlərimdən birini yaşayıram, nə üçün? Çünki arzuma çatmışam.

Mirzə Cəlilin ev muzeyini yaratmaq istəmişəm, bunu da yaratmışam. Azərbaycanın mötəbər adamları ilə bir yerdəyəm və bunu bir yerdə açırıq”. Bu fikirlərin əsas qayəsi insanların Azərbaycan mədəniyyəti və ədəbiyyatı tarixində xüsusi yeri olan böyük mütəfəkkirin zəngin irsinin öyrənilməsi üçün əlverişli mühitin yaradılması ilə izah olunur. Görkəmli maarifpərvər xadimin bu memorial muzeylərinin ümumi ictimai-mədəni əhəmiyyəti yazıçı-dramaturqun ədəbi irsinin öyrənilməsi, populyarlaşdırılması istiqamətində həyata keçirtdiyi elmi, pedaqoji fəaliyyətlə izah olunur.

**Məqalənin aktuallığı.** Azərbaycan milli ədəbiyyatının öyrənilməsi müasir mədəniyyətin üzərinə düşən vəzifələrdən biridir. Realist ədəbiyyatda zəngin ədəbi irs qoymuş görkəmli dramaturq, yazıçı-publisist Cəlil Məmmədquluzadənin yaradıcılığına maraq tədqiqatçılarda daima böyük maraq doğurur ki, bu da həmin mövzunun aktuallığını qabardan əsas amillərdən biridir.

**Məqalənin elmi yeniliyi.** Hazırkı məqalənin elmi yeniliyi Cəlil Məmmədquluzadənin ədəbi yaradıcılığının respublikada fəaliyyət göstərən memorial muzeylər vasitəsilə populyarlaşdırılmasının muzeyşünaslıq kontekstlərinin təhlili təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Mədəniyyətin əsas qollarından birini təşkil edən muzeylər, həm də elmi-tədqiqat, maarifləndiricilik funksiyalarını yerinə yetirir. Azərbaycanda C. Məmmədquluzadənin xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış memorial ev muzeyləri və fondların əsas məqsədi görkəmli sənətkarın zəngin ədəbi irsinin öyrənilməsi və populyarlaşdırılmasıdır. Hazırkı məqalədə muzeylərin bu istiqamətdə apardığı fəaliyyət işıqlandırılır ki, bu da Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı ilə maraqlananlar üçün maraqlı ola bilər.

## Ədəbiyyat

1. Cəlil Məmmədquluzadə: biblioqrafiya / Tərt. ed.: M. Vəliyeva, L. Şirinova, H. Manafova; elmi red. K.Tahirov; ön söz. müəl. İ. Həbibbəyli; red. M.Cəfərova. Bakı, 2019, 760 s.

2. Zümrüd Qurban qızı. Böyük ədibin ev muzeyində: tarix nədən danışır? “Respublika” qəz., 2019, 28 aprel.

3.Kəngərli S. Mənim məqalələrim. “Əcəmi” nəşriyyatı poliqrafiya birliyi. Bakı, 2017, 240 s.

4. Гротская З.В. Об экспозиции музея М.Ю.Лермонтова // Что такое литературно-мемориальный музей / Сб. науч. тр. / Отв. ред. А.В. Бартковская. М., 1981.

5. Музееведение. Музеи исторического профиля: Учеб. пособие для вузов по спец. «История» / Под ред. К.ГЛевыкина, В.Хербста.  М.: Высш. шк., 1988, 431 с.

**А.А. Рзаева**

## Роль музеев в изучении литературного наследие Джалила Мамедкулизаде

### Резюме

Музеи, созданные для увековечения памяти видного деятеля азербайджанской литературы Джалиля Мамедгулизаде играют важную роль в изучении его богатого литературного наследия. В данной статье освещается деятельность музея Азербайджанского национального литературы имени Н. Гянджеви, музея литературы Нахичевана имени Дж. Мамедгулизаде, а также домов-музеев писателя созданные в Баку и Нахчыване в этом направлении.

**A.A. Rzayeva**

## The role of museums in the study of Jalil Mammadguluzadeh's literary heritage

### Summary

Museums created to immortalize the memory of literature in the republic play an important role in the study of the rich literary heritage of Jalil Mammadguluzadeh, a prominent figure in Azerbaijani literature. In the article there is considered the activities of museums such as the Azerbaijan National Museum of Literature named after N. Ganjavi, the Nakhchivan Museum of Literature named after J. Mammadguluzade, the house museums of the writer in Baku and Nakhchivan in this direction.

**Redaksiyaya daxil olub:** 09.12.2020